Xocavənd



**Yaranma tarixi – 26.11.1991**
**Ərazisi –1458 км²**
**Əhalinin sayı – 13409 nəfər**
***(01 yanvar 2024-cü il tarixə)***
**Əhalinin sıxlığı -1 kv.km 9,2 nəfər**
***(01 yanvar 2024-cü il tarixə)***

**2023-cü ilin yanvar-dekabr aylarında**
**Xocavənd Rayonunda sosial iqtisadi inkişafa dair təhlil**

**M Ə R U Z Ə S İ**

**Ümumi məhsul buraxılışı -** 2023-cü ilin yanvar-dekabr aylarında rayonda 133565,4 min manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 31,0 faiz az ümumi məhsul istehsal edilmişdir. Ümumi məhsul istehsalının 0,8 faizi sənaye, 0,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 85,1 faizi tikinti, 13,4 faizi isə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsinin payına düşmüşdür.

Məhsul buraxılışının həcmi aşağıda diaqrammada əks olmuşdur.



## İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı və məhsul buraxılışının fiziki həcm indeksi

| | **2023 illik (faktiki qiymətlərlə),** min manatla | **2022 illik (faktiki qiymətlərlə),** min manatla | **Qiymət indeksi** | **2023-cü il 2022-ci ilinin qiymətlərilə,** min manatla | **Fiziki həcm indeksi,** faizlə |
|---|---|---|---|---|---|
| **Sənaye** | 1019,6 | 330,0 | 100,0 | 1019,7 | 309,0 |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | 17737,4 | 20729,2 | 100,0 | 17744,2 | 85,6 |
| **Tikinti** | 113951,4 | 171930,1 | 106,4 | 107112,4 | 62,3 |
| **Nəqliyyat və anbar təsərrüfatı** | 857,0 | 679,6 | 100,0 | 857,0 | 126,1 |
| **İnformasiya və rabitə** | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| | | | | | |
| **Yekun:** | 133565,4 | **193668,9** | **100,0%** | **133631,5** | **69,0** |

**Sənaye müəssisələri üzrə -** Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2023-cü ilin yanvar-dekabr aylarında 1019,6 min manatlıq və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 dəfə çox sənaye məhsulu istehsal edilmişdir. Sənaye məhsulunun 76,8 faizi emal sektorunda, 23,2 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmişdir. 2024-cü ilin 01 yanvar vəziyyətinə sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayı 130 nəfər təşkil etmiş, işləyənlərin orta aylıq nominal əməkhaqqı 585,6 manat olmuşdur.

Sənaye müəssisələrinin iş və xidmətlərin həcmi diaqrammada keçən illərin müvafiq dövrləri ilə səciyyəli olaraq aşağıdakı kimi olmuşdur




**Nəqliyyat və anbar təsərrüfatları üzrə -** 2023-cü ilin yanvar-dekabr aylarında rayonda nəqliyyat və anbar təsərrüfat müəssisələri tərəfindən göstərilmiş xidmətlərin həcmi faktiki qiymətlərlə 857,0 min manat olmuşdur. Muzdla işləyənlərin orta siyahı sayı 31 nəfər olmaqla orta aylıq nominal əməkhaqqı 370,0 manat təşkil etmişdir.

**Tikinti, əsas kapitala yönəldilmiş investisiyalar -** 2023-cü ilin yanvar-dekabr aylarında ilkin hesablamalara əsasən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 113951,4 min manat investisiya yönəldilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 33,8 faiz az olmuşdur. Yönəldilmiş investisiyanın 112608,6 min manatı və ya 98,8 faizi dövlət mülkiyyətində olan müəssisə və təşkilatların, 1342,8 min manatı (1,2 faiz) isə qeyri-Dövlət mülkiyyətində olan müəssisə və təşkilatların payına düşmüşdür.

2023-cü ilin yanvar-dekabr aylarında əsas kapitala yönəldilmiş investisiyanın 98,6 faizi və ya 112319,1 min manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 34,7 faiz az olmuşdur. 2023-cü ilin yanvar-dekabr aylarında 5147,8 min manat dəyərində əsas fondlar istifadəyə verilmişdir. İstifadəyə verilmiş əsas fondların 3805,0 min manatı və ya 73,9 dövlət mülkiyyətinin, 1342,8 min manatı (26,1 faiz) isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

***Əsas kapitala investisiya qoyuluşu, min manat***




**Kənd təsərrüfatı üzrə -** Rayonunun iqtisadiyyatında taxılçılıq, tərəvəzçilik, bostan məhsulları becərilməsi aparıcı rol oynayır. Yanvar-dekabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulu, min manatla aşağıdakı kimi olmuşdur.

| 2023-cü il yanvar-dekabr | o cümlədən | | 2022-ci il yanvar-dekabr | o cümlədən | | Qiymət indeksi | 2023-cü il 2022-ci ilin qiymətlərilə | Fiziki həcm indeksi |
|---|---|---|---|---|---|---|---|---|
| | bitkiçilik | heyvandarlıq | | bitkiçilik | heyvandarlıq | | | |
| 17737,4 | 9988,7 | 7748,7 | 20729,2 | 13846,0 | 6883,2 | 104,8 | 16923,1 | 81,6 |

Hər il olduğu kimi keçən ilin payızında suvarılan və suvarılmayan sahələrdə dən və yaşıl yem üçün əkin işləri aparılmışdır. 2023-cü ilin məhsulu üçün 01 iyul vəziyyətinə təmiz herik şumunu da daxil etməklə 8112 hektar şum qaldırılmışdır. Əkin sahələri keçən ilin müvafiq dövrü ilə müqayisədə 432,3 hektar və ya 5,5 faiz artmışdır. Əkin sahələrində 7502,2 hektar sahədə taxıl əkilmişdir ki, o cümlədən 5119,4 hektar buğda, 2382,8 hektar arpa təşkil etmişdir. 2023-cü ilin 01 iyul vəziyyətinə 434,4 hektar yazlıq

əkin işləri aparılmışdır. Görülən işlərlə yanaşı rayonda əhali tərəfindən bu il 37 qutu (703 qram) ipəkqurdu toxumu bəslənilmişdir. Tədarük edilən 1 ton 520 kiloqram barama "Azəripək" MMC-yə təhvil verilmişdir.

| | | 2022 | 2023 | Fərq | |
|---|---|---|---|---|---|
| | | ha | ha | + - | % |
| 1 | **Cəmi əkin, ha** | **7868,5** | **8300,8** | **+432,3** | **105,5** |
| | **ondan** | | | | |
| | O cümlədən Buğda | 4331,4 | 5119,4 | +788 | 118,2 |
| | Arpa | 2907,3 | 2382,8 | -524,5 | 82,0 |
| 2 | **Qarğıdalı** | **80** | **20** | **-60** | **25,0** |
| 3 | **Kartof tərəvəz və bostan bitkilərinin cəmi** | **158,9** | **375,4** | +216,5 | 236,2 |
| | Kartof | 15,9 | 3,7 | **-12,2** | **23,3** |
| | Tərəvəz | 129,7 | 363,6 | +233,9 | 280,3 |
| | Bostan bitkiləri | 13,3 | 8,1 | -5,2 | 60,9 |
| 4 | **Çox illik otların cəmi** | **390,9** | **403,2** | **+12,3** | **103,1** |
| | Cari ilin çoxillik otları | 26,7 | 39 | +12,3 | 146,1 |
| | Keçmiş illərin çoxillik otları | 364,2 | 364,2 | 0 | 100,0 |




Rayon ərazisində dəmyə əkinçiliyi olduğundan və iqlimin quraqlıq keçməsindən, əkilmiş 7502,2 hektar taxıl sahəsinin 7252,2 hektar sahəsi tələf olmuş, salamat qalmış 250 hektar sahədən 340 ton məhsul əldə edilmişdir. 2023-cü il ərzində əkilmiş 375,4 hektar kartof, tərəvəz və bostan bitkilərindən 7414 ton məhsul əldə edilmişdir. Ümumi məhsuldarlıq 197,5 sentner olmuşdur.

Əkin sahəsi və məhsul yığımı haqqında məlumatlar aşağıdakı cədvəllərdə öz əksini tapmışdır.

**Dənlilər və dənli paxlalı bitkilər**

| Kənd təsərrüfatı bitkilərinin adı | Əkin sahəsi, hektar | Yığım sahəsi, hektar | İlkin çəkidə məhsul yığılmışdır, ton | Təmizlənmədən sonrakı çəkidə məhsul, ton | Məhsuldarlıq, sentner/hektar | |
|---|---|---|---|---|---|---|
| | | | | | ilkin çəkidə | təmizlənmədən sonrakı çəkidə |
| Keçən ilin payızında dən və yaşıl yem üçün payızlıqlar əkilib | 7502,2 | 250,0 | 340,0 | 340,0 | 13,6 | 13,6 |
| Yazlıq əkinlərin səpininin axırına payızlıqların salamat qalmış sahələri dən üçün | 250,0 | 250,0 | 340,0 | 340,0 | 13,6 | 13,6 |
| Payızlıq buğda | 200,0 | 200,0 | 280,0 | 280,0 | 14,0 | 14,0 |
| Payızlıq arpa | 50,0 | 50,0 | 60.0 | 60,0 | 12,0 | 12,0 |
| Tam yetişmiş qarğıdalı (dən üçün) | 20,0 | 20,0 | 80,0 | 80,0 | 40,0 | 40,0 |
| Dənli və dənli paxlalıların cəmi | 270,0 | 270,0 | 420,0 | 420,0 | 15.6 | 15,6 |

## Kartof, tərəvəz və bostan bitkiləri

| Kənd təsərrüfatı bitkilərinin adı | Əkin sahəsi, hektar | Yığım sahəsi, hektar | İlkin çəkidə məhsul yığılmışdır, ton | Məhsuldarlıq, sentner/hektar |
|---|---|---|---|---|
| Kartof | 3,7 | 3,7 | 34,5 | 93,2 |
| Açıq torpaqlarda bütün növ tərəvəz-cəmi(toxumluq üçün birillik və ikiillik bitkilərdən başqa) onlardan: | 363,6 | 363,6 | 7291,2 | 200,5 |
| xiyar | 3,4 | 3,4 | 35,0 | 102,8 |
| pomidor | 3,4 | 3,4 | 33,7 | 99,0 |
| baş soğan | 352,1 | 352,1 | 7182,2 | 204,0 |
| qabaq | 1,0 | 1,0 | 9,4 | 93,8 |
| badımcan | 1,3 | 1,3 | 10,7 | 82,2 |
| şirin bibər | 0,9 | 0,9 | 7,0 | 77,9 |
| acı bibər | 0,9 | 0,9 | 7,0 | 77,8 |
| turp | 0,6 | 0,6 | 6,3 | 105,7 |
| Bostan bitkiləri-cəmi | 8,1 | 8,1 | 88,3 | 109,0 |
| o cümlədən: qarpız | 4,1 | 4,1 | 47,4 | 115,5 |
| yemiş | 4,0 | 4,0 | 40,9 | 102,3 |
| Kartof, tərəvəz və bostan bitkilərinin cəmi | 375,4 | - | - | - |
| Açıq və örtülü torpaq sahələrindən tərəvəz toplanmışdır | - | - | 7291,2 | - |
| Tərəvəzlər-cəmi | 363,6 | - | - | - |

## Yemlik bitkilər

| Kənd təsərrüfatı bitkilərinin adı | Əkin sahəsi, hektar | Yığım sahəsi, hektar | İlkin çəkidə məhsul yığılmışdır, ton | Məhsuldarlıq, sentner/hektar |
|---|---|---|---|---|
| Keçən ilin payızlıq əkini də daxil etməklə cari ilin örtüksüz çoxillik otlar - cəmi | 39,0 | - | - | - |
| o cümlədən istifadə olunub: a) quru ot üçün | - | 39,0 | 175,8 | 45,1 |
| Keçən illərdə əkilmiş çoxillik otlar – cəmi | 364,2 | - | - | - |
| o cümlədən istifadə olunub: a) quru ot üçün | - | 364,2 | 1939,7 | 53,3 |
| Cəmi yemlik bitkilər | 403,2 | - | - | - |

## Çoxillik əkmələrin növlər üzrə əkin sahəsi, məhsul yığımı və məhsuldarlığı

| Kənd təsərrüfatı bitkilərinin adı | İl ərzində yeni salınmış bağlar, hektar | Əkmələr, hektar | | Məhsul yığımı, ton | | Məhsuldarlıq, sentner/hektar |
|---|---|---|---|---|---|---|
| | | cəmi | ondan, bar verən yaşda | cəmi | ondan, bar verən yaşda | |
| Alma | - | 7,5 | 7,4 | 61,2 | 61,2 | 82,7 |
| Armud | - | 5,0 | 4,9 | 42,2 | 42,2 | 86,1 |
| Heyva | - | 3,6 | 3,5 | 42,9 | 42,9 | 122,5 |
| Şaftalı | - | 3,2 | 3,1 | 21,5 | 21,5 | 69,5 |
| Ərik | - | 9,3 | 9,2 | 84,4 | 84,4 | 91,8 |
| Gilas | - | 4,3 | 4,3 | 30,7 | 30,7 | 71,3 |
| Albalı (gilənar) | - | 5,2 | 5,1 | 36,2 | 36,2 | 71,1 |
| Gavalı | - | 3,6 | 3,6 | 35,7 | 35,7 | 99,1 |
| Alça | - | 3,2 | 3,1 | 29,3 | 29,3 | 94,6 |
| Qoz | - | 1,8 | 1,6 | 4,0 | 4,0 | 25,1 |
| Fındıq | - | 4,3 | 4,1 | 12,6 | 12,6 | 30,6 |
| Nar | - | 7,9 | 7,8 | 81,6 | 81,6 | 104,6 |
| Xurma | - | 3,1 | 3,0 | 37,7 | 37,7 | 125,8 |
| Əncir | - | 3,8 | 3,7 | 43,7 | 43,7 | 118,1 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Zoğal | - | 1,6 | 1,5 | 9,8 | 9,8 | 65,0 |
| Əzgil | - | 1,3 | 1,2 | 8,7 | 8,7 | 72,2 |
| Giləmeyvəliklər-cəmi | - | 0,7 | 0,7 | 18,6 | 18,6 | 265,3 |
| **Bağlar və giləmeyvəliklər - cəmi** | - | 69,4 | 67,8 | 600,8 | 600,8 | 88,6 |
| Tut (meyvə üçün), ədədlə | - | 350,0 | 120,0 | 18,5 | 18,5 | 1,5 |
| Çəkil əkmələri (yarpaq üçün) | - | 18,0 | - | - | - | - |
| Dəfnə ağacı, ədədlə | - | 12,0 | - | - | - | - |

**Əncir, innab, iydə, zoğal, əzgil və sair meyvələrin cəmi**

| Kənd təsərrüfatı bitkilərinin adı | İl ərzində yeni salınmış bağlar, hektar | Əkmələr, hektar | | Məhsul yığımı, ton | | Məhsuldarlıq, sentner/hektar |
|---|---|---|---|---|---|---|
| | | cəmi | ondan, bar verən yaşda | cəmi | ondan, bar verən yaşda | |
| A | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Əncir, innab, iydə, zoğal, əzgil və sair meyvələrin cəmi | - | 6.7 | 6.4 | 62.1 | 62.1 | 97.1 |

01.01.2024-cü il vəziyyətinə mövcud mal-qaranın sayı 2046 baş, o cümlədən, inək və camışlar 995 baş, qoyun və keçinin sayı 13440 baş, bütün növdən olan quşların sayı 20723 baş olmuşdur.

**Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında mal-qaranın sayı**

| **İribuynuzlu mal-qara** | **o cümlədən, inək və camışlar** | **Qoyun və keçilər** | **Donuzlar** |
|---|---|---|---|
| 2046 | 995 | 13440 | 0 |

Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsullarının istehsalı aşağıdakı cədvəldə əks olunmuşdur.

| | istehsal edilmişdir | | + - | % |
|---|---|---|---|---|
| | **2022** | **2023** | | |
| Ət diri çəkidə (sentnerlə) | 8608 | 8495 | -113 | 98,7 |
| Süd (sentnerlə) | 28905 | 27225 | -1680 | 94,2 |
| Yumurta (min ədədlə) | 531 | 591 | +60 | 111,3 |
| Yun (fiziki çəkidə, sentner) | 323 | 416 | +93 | 128,8 |

**Demoqrafik göstəricilər üzrə -** 2024-cü il 01 yanvar vəziyyətinə rayon əhalisinin sayı 13409 nəfər olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin ümumi artımı 152 nəfər olmuşdur. Cari ilin 01 oktyabr vəziyyətinə doğulanlar 244 nəfər, ölənlər 60 nəfər, təbii artım 184 nəfər, gələnlər 47 nəfər, gedənlər 79 nəfər olmaqla miqrasiyada 32 nəfər azalma müşahidə edilmişdir. Ümumi artım 152 nəfər olmuşdur. Nikah 23, nikahın pozulması isə 19 olmuşdur.
Əvvəlki ilin müvafiq dövrü ilə müqayisəli olaraq demoqrafik göstəriciləri aşağıdakı kimidir.

***01 yanvar 2024-cü il vəziyyətinə əhalinin sayı, min nəfər***




**Təhsil üzrə -** Ümumtəhsil məktəblərdə 2023/2024 tədris ilində rayonda 16 dövlət gündüz ümumtəhsil müəssisəsi fəaliyyət göstərir 3- ü ibtidai, 2 -si ümumi orta, 11-i tam orta məktəb olmuşdur. Təhsil müəssisələrinin 2153 nəfər şagird təhsil alır ki, onların da 31 nəfəri (1,4%) ibtidai məktəblərin, 40 nəfəri (1,9%) ümumi orta məktəblərin, 2082 nəfər (96,7%) şagird tam orta məktəblərin payına düşür.

| | **2017 2018** | **2018 2019** | **2019 2020** | **2020 2021** | **2021 2022** | **2022 2023** | **2023 2024** |
|---|---|---|---|---|---|---|---|
| Əyani ümumi təhsil müəssisələrinin sayı | 16 | 16 | 16 | 16 | 16 | 16 | 16 |
| *o cümlədən:* | | | | | | | |
| ibtidai | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| ümumi orta | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| tam orta | 11 | 11 | 11 | 11 | 11 | 11 | 11 |
| Əyani ümumi təhsil müəssisələrində şagirdlərin sayı, nəfər | 2067 | 2026 | 2072 | 2200 | 2165 | 2153 | 2108 |
| *o cümlədən:* | | | | | | | |
| ibtidai | 27 | 24 | 27 | 24 | 32 | 31 | 25 |
| ümumi orta | 42 | 42 | 38 | 42 | 40 | 40 | 37 |
| tam orta | 1998 | 1960 | 2007 | 2134 | 2093 | 2082 | 2046 |
| Əyani ümumi təhsil müəssisələrində qızların sayı, nəfər | 948 | 894 | 933 | 977 | 959 | 970 | 943 |
| Müəllimlərin sayı, nəfər | 266 | 266 | 376 | 296 | 292 | 229 | 279 |

Ümumtəhsil müəssisələrində İnformasiya və kommunikasiya texnologiyalarından və onlardan istifadə edilməsi haqqında məlumat aşağıdakı kimi olmuşdur.

| | **Cəmi** | **Ibtidai Məktələrdə** | **Ümumi orta məktəblərdə** | **Tam orta məktəblə rdə** |
|---|---|---|---|---|
| Kompüterləri olan məktəblərin sayı-cəmi | 16 | 3 | 2 | 11 |
| Onlardan İnternetə çıxışı olanlar | 5 | - | - | 5 |
| Kompüterlərin sayı | 92 | 3 | 1 | 88 |
| İnternetə qoşulan kompüterlərin sayı | 36 | - | - | 36 |
| Müəssisələrdə internetdən istifadə etmiş şagirdlərin ümumi sayı | 351 | - | - | 351 |
| Lokal şəbəkənin mövcudluğu | 3 | 3 | 2 | 3 |
| Elektron poçtun mövcudluğu | 16 | 3 | 2 | 11 |
| Kompüter siniflərinin sayı | 5 | - | - | 5 |

Rayonun ümumtəhsil məktəblərində 585 nəfər çalışır və onlardan da 453 nəfərini və ya 77,4 faizi qadınlar təşkil edir. Müəllimlərin sayı (məktəb rəhbərlərindən başqa) 279 nəfər olmuşdur. Rayonun ümumtəhsil məktəblərində çalışan işçilərin orta aylıq əməkhaqqı 595,2 manat təşkil etmişdir.

**Mədəniyyət və Turizm üzrə -** Rayon əhalisinə 1 klub və mədəniyyət evləri, 5 kitabxana xidmət göstərir. Mədəniyyət və Turizim şöbəsi işçilərinin sayı 143 nəfər olmaqla orta aylıq əməkhaqqı 705,6 manat təşkil etmişdir. İşçilərinin 94 nəfəri (65,7%) qadınlardır.

| | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Kütləvi kitabxanaların sayı, | 5 | 5 | 5 | 5 | 5 |
| Onlardan kitab fondu ,min nüsxə ilə | 45,8 | 46,1 | 47,1 | 46,6 | 46,6 |
| Əhalinin hər 1000 nəfərinə | 1046 | 1058 | 1063 | 1058 | 1058 |
| Klub müəssisələrinin sayı | 15 | 15 | 1 | 1 | 1 |

**Səhiyyənin göstəriciləri üzrə -** Rayon Mərkəzi xəstəxanasında ümumilikdə 301 nəfər fəaliyyət göstərir. Xəstəxanada 43 həkim, orta tibb heyəti 115 nəfər, 143 nəfər isə digər peşələr üzrə olmaqla işçi heyəti çalışır. Səhiyyə İşçilərinin 220 nəfəri (73,1%) qadınlardır. Onların orta aylıq əməkhaqqı 737,4 manat təşkil etmişdir.

| | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Bütün ixtisaslardan olan həkimlərin sayı, nəfər | 19 | 18 | 44 | 43 | 43 |
| Orta tibb heyətinin sayı, | 106 | 111 | 131 | 115 | 115 |
| Xəstəxana müəssisələrinin sayı | 4 | 4 | 2 | 2 | 2 |
| Xəstəxana çarpayılarının sayı | 180 | 180 | 295 | 295 | 295 |
| Əhaliyə ambulatoriya - poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | 8 | 8 | 8 | 8 | 8 |

**İnzibati xətalar üzrə** - 2023-cü ildə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan əlaqədar orqanlar tərəfindən 879 inzibati xəta aşkar edilmişdir ki, bu da 2022-ci ilə nisbətən 2 dəfə çox olmuşdur. Barəsində inzibati xətalar haqqında işlər üzrə qərar çıxarılmış şəxslərin sayı 875 nəfər təşkil etmişdir. Onlardan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə 13 nəfər, bu məcəllənin 198.2-ci maddəsində nəzərdə tutulmuş əməllər zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına görə 1 nəfər, tərkibində narkotik maddələr olan yabanı bitkilərin məhv edilməsi üzrə tədbirlər görülməməsinə görə 1 nəfər, Bu Məcəllənin 299, 305, 306.4, 318 və 322.0.4-cü maddələrində nəzərdə tutulan yerlər istisna olmaqla, “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə tütün çəkməyə görə 5 nəfər, xırda talama, yəni oğurlama, mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə və ya dələduzluq yolu ilə özgəsinin əmlakını talamağa görə 9 nəfər, əkinlərin və ya bitkilərin üstü ilə avtomobil, traktor, kombayn və ya digər nəqliyyat vasitələrini, yaxud at arabalarını sürməklə və ya digər üsullarla onların korlanmasına görə 1 nəfər, yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması, yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərinin pozulmasına görə 2 nəfər, məişət tullantılarının tutumlardan kənar yerlərə atılmasına görə 1 nəfər, müntəzəm şəhərdaxili şəhərlərarası və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusların müəyyən edilmiş hərəkət cədvəlinə və ya hərəkət sxeminə riayət olunmamasına, o cümlədən müntəzəm şəhərlərarası və beynəlxalq marşrutlar

üzrə daşımalar zamanı başlanğıc, aralıq və son təyinat məntəqəsinin avtovağzaldan kənarda olmasın görə 372 nəfər, nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsinə görə 204 nəfər, nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs tərəfindən nəqliyyat vasitəsinin alkoqoldan istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə 1 nəfər, nəqliyyat vasitəsini qapıları bağlanmamış vəziyyətdə yerindən tərpətməyə və ya onun hərəkəti zamanı qapıları açmağa görə 184 nəfər, yol-nəqliyyat hadisələri nəticəsində və ya nəqliyyat vasitəsinin nasazlığı səbəbindən zədələnmiş nəqliyyat vasitələrinin daşınması üçün və ya təbii fəlakət yerlərinə getmək üçün, yaxud qanunla nəzərdə tutulmuş digər təxirəsalınmaz hallarda yükdaşıyan nəqliyyat vasitələrinin müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşlarına təqdim edilməməsinə görə 1 nəfər, qanunsuz küçə ticarəti, yəni müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilməmiş yerlərdə malların satılmasına və ya işlərin (xidmətlərin) görülməsinə görə 1 nəfər, xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlərə görə 11 nəfər, icra sənədindəki tələbin üzrsüz səbəbdən icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə icra edilməməsinə və ya icra məmurunun məhkəmə və ya başqa dövlət orqanlarının qərarlarının icrası ilə əlaqədar digər qanuni tələblərinin yerinə yetirilməməsinə görə 6 nəfər, Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların və bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın törədilməsinə görə inzibati cərimə istisna olmaqla, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarının qanuni qüvvəyə mindiyi gündən 3 ay müddətində qanunla müəyyən edilmiş əsaslar olmadan icra edilməməsinə görə 14 nəfər, polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmamağa görə 50 nəfər, müvafiq icra hakimiyyəti orqanından xüsusi icazə almış şəxslər tərəfindən mülki silahın və ya onun üçün döyüş sursatının saxlanılması, daşınması və ya satılması qaydalarının pozulmasına görə 2 nəfər olmaqla inzibati xəta qeydə alınmışdır. Hesabat dövründə barəsində inzibati tənbeh tətbiq edilmiş 879 nəfərdən cərimə olunanlar 819 nəfər, xüsusi hüququ məhdudlaşdırılan şəxslərin sayı 5 nəfər olmuşdur. Cərimə edilən 819 nəfərdən ümumilikdə 36248,5 manat məbləğində cərimə ödənilmişdir.

**İqtisadiyyatda işləyənlərin sayı və əməkhaqqı barədə -** 2024-cü il yanvarın 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 3 nəfər və ya 0,2 faiz artaraq 1368 nəfər olmuş, onlardan 1274 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 94 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 42,8 faizi təhsil, 0,4 faizi ticarət, 9,5 faizi sənaye, 22,0 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 8,0 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 2,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 0,8 faizi peşə, elmi və texniki fəaliyyət, 10,4 faizi İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 0,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar. 2023-cü ilin yanvar-dekabr aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,6 faiz artaraq 685,4 manat olmuşdur. İqtisadiyyatın dövlət idarəetməsi və müdafiə; sosial təminat, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, əyləncə və incəsənət sahəsində fəaliyyət, eləcə də peşə, elmi və texniki fəaliyyət sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

**Yeni iş yerləri üzrə-** 2024-cü ilin 01 yanvar vəziyyətinə rayonda 69 yeni iş yeri açılmışdır. O cümlədən; yeni yaradılmış hüquqi şəxslərdə 4 yeni açılmış iş yerləri, mövcud hüquqi şəxslərdə 11 yeni iş yeri və fiziki şəxslərdə isə 54 yeni iş yeri açılmışdır.

| İqtisadi və inzibati rayonlar | Sətrin №-si | 2023-cü ilin IV rübündə (vahid) | İlin əvvəlindən (vahid) |
|---|---|---|---|
| Yeni açılmış iş yerlərinin sayı | 01 | 23 | 69 |
| Hüquqi şəxslərdə üzrə yeni açılmış iş yerlərinin sayı | * | 6 | 15 |
| **o cümlədən:** | | | |
| Yeni yaradılmış hüquqi şəxslərdə | 02 | | 4 |
| Mövcud hüquqi şəxslərdə | 03 | 6 | 11 |
| Fiziki şəxslərdə | 05 | 17 | 54 |

**Xocavənd Rayon Statistika İdarəsinin rəisi** **Fərnad Tahirov**

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

XOCAVƏND RAYON STATİSTİKA İDARƏSİ

**2023-cü ilin yanvar-dekabr aylarında**
**Xocavənd Rayonunda sosial-iqtisadi inkişafa dair təhlil**

# *M Ə R U Z Ə S İ*

**XOCAVƏND – 2024**

# M Ü N D Ə R İ C A T


Ümumi məhsul buraxılışı ------------------------------- 1-2

Sənaye ------------------------------------------------------- 2

Nəqliyyat və anbar təsərrüfatı  ------------------------- 2

Tikinti -------------------------------------------------------- 3

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq  --- 3-4-5-6

Demoqrafiya  ---------------------------------------------- 6

Təhsil  ------------------------------------------------------- 7

Mədəniyyət və Turizm ------------------------------------ 8

Səhiyyə  ---------------------------------------------------- 8

İnzibati xətalar -----------------------------------------------8-9

İqtisadiyyatda işləyənlərin sayı və əməkhaqqı  ---- 9

Yeni açılmış iş yerləri  ----------------------------------  9-10